Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1-2, s.168-173
Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1-2, p.168-173
Нахчыванский институт учителей. Научные труды, 2025, № 1-2, с.168-173

**UOT: 327.7:338.242**
https://doi.org/10.30546/670832.2025.01.1090

# Geosiyasi böhran şəraitində Avropa İttifaqının enerji təhlükəsizliyi: çağırışlar və yeni yanaşmalar

**Müəllif(lər):**

**Huseyn Abbasov**
Azərbaycan Milli Elmlər Akademiyası
Dissertant
**E-poçt:** huseynabbasov109@gmail.com

**Açar sözlər:** Avropa İttifaqı, enerji təhlükəsizliyi, Ukrayna-Rusiya müharibəsi, enerji diversifikasiyası, bərpa olunan enerji

**Annotasiya.** Məqalədə Avropa İttifaqının (Aİ) enerji təminatı təhlükəsizliyini Ukrayna-Rusiya müharibəsi kontekstində təhlil edir. Enerji təhlükəsizliyi, müasir dövrdə dövlətlərin iqtisadi inkişafı və geosiyasi strategiyalarının əsas elementlərindən biri hesab edilir. Aİ uzun müddət ərzində Rusiyadan enerji asılılığını azaltmaq və enerji təchizatını diversifikasiya etmək məqsədilə müxtəlif strategiyalar qəbul etmişdir. Lakin 24 fevral 2022-ci ildə başlayan müharibə bu siyasətləri daha da sürətləndirmiş, yeni enerji mənbələri və tədarük marşrutlarının axtarışını aktuallaşdırmışdır. Məqalə çərçivəsində enerji təhlükəsizliyi anlayışı konseptual və tarixi baxımdan araşdırılmış, Aİ-nin enerji siyasətində baş verən dəyişikliklər və bu siyasətin qarşısında duran əsas risklər qiymətləndirilmişdir. Xüsusilə, geosiyasi qeyri-müəyyənliklər, iqtisadi məhdudiyyətlər və iqlim dəyişikliyi ilə bağlı çağırışlar Aİ-nin enerji strategiyalarına təsir edən əsas amillər kimi göstərilmişdir. Bununla yanaşı, bərpa olunan enerji mənbələrinə keçid, enerji şaxələndirilməsi və enerji qənaəti siyasətləri Aİ üçün uzunmüddətli həll yolları kimi nəzərdən keçirilmişdir. Araşdırmanın nəticələri göstərir ki, Aİ-nin enerji təhlükəsizliyini tam təmin etmək üçün bərpa olunan enerji sektoruna daha çox investisiya qoyması, alternativ tədarük marşrutları yaratması və enerji siyasətini vahid şəkildə koordinasiya etməsi zəruridir. Məqalə, həmçinin Aİ-nin enerji siyasətində gələcək perspektivlərə dair tövsiyələr irəli sürür və enerji təhlükəsizliyinin davamlı inkişaf üçün əhəmiyyətini vurğulayır.

## EU energy security in the context of geopolitical crises: challenges and new approaches

**Author(s):**

**Huseyn Abbasov**
Azerbaijan National Academy of Sciences
Doctoral Candidate
**E-mail:** huseynabbasov109@gmail.com

**Key words:** European Union, energy security, Ukraine-Russia war, energy diversification, renewable energy

**Abstract.** The article analyzes the energy supply security of the European Union (EU) in the context of the Ukraine-Russia war. Energy security is considered one of the key elements of states' economic development and geopolitical strategies in the modern era. For a long time, the EU has adopted various strategies to reduce dependence on Russian energy and to diversify energy supplies. However, the war that began on February 24, 2022, accelerated these policies and intensified the search for new energy sources and supply routes. Within the scope of the article, the concept of energy security is examined both conceptually and historically. The changes in EU energy policy and the main risks faced by this policy are evaluated. In particular, geopolitical uncertainties, economic constraints, and challenges related to climate change are identified as the main factors affecting EU energy strategies. Furthermore, the transition to renewable energy sources, energy diversification, and energy efficiency policies are considered as long-term solutions for the EU. The findings suggest that, to fully ensure its energy security, the EU needs to invest more in the renewable energy sector, establish alternative supply routes, and coordinate energy policies in a unified manner. The article also provides recommendations for the future direction of EU energy policy and emphasizes the importance of energy security for sustainable development.

## Энергетическая безопасность ЕС в условиях геополитического кризиса: вызовы и новые подходы

**Автор(ы):**

**Гусейн Аббасов**
Национальная Академия Наук Азербайджана
Диссертант
**Э-почта:** huseynabbasov109@gmail.com

**Ключевые слова:** Европейский Союз, энергетическая безопасность, война между Украиной и Россией, диверсификация энергетики, возобновляемые источники энергии.

**Аннотация.** В статье анализируется энергетическая безопасность Европейского Союза (ЕС) в контексте украинско-российской войны. Энергетическая безопасность считается одним из ключевых элементов экономического развития и геополитической стратегии государств в современную эпоху. ЕС уже давно принимает различные стратегии по снижению энергетической зависимости от России и диверсификации поставок энергоносителей. Однако война, начавшаяся 24 февраля 2022 года, ускорила реализацию этой политики и сделала поиск новых источников энергии и маршрутов поставок неотложным. В статье рассматривается концепция энергетической безопасности с концептуальной и исторической точки зрения, а также оцениваются изменения в энергетической политике ЕС и основные риски, с которыми сталкивается эта политика. В частности, геополитическая неопределенность, экономические ограничения и проблемы изменения климата были названы ключевыми факторами, влияющими на энергетические стратегии ЕС. Между тем, переход на возобновляемые источники энергии, диверсификация энергетики и политика энергоэффективности рассматриваются в качестве долгосрочных решений для ЕС. Результаты исследования показывают, что ЕС необходимо больше инвестировать в сектор возобновляемой энергетики, создавать альтернативные маршруты поставок и координировать энергетическую политику единым образом для полного обеспечения энергетической безопасности. В статье также излагаются рекомендации относительно будущих перспектив энергетической политики ЕС и подчеркивается важность энергетической безопасности для устойчивого развития.

**Giriş.** Enerji təminatı təhlükəsizliyi, qlobal iqtisadiyyatın və siyasi sabitliyin fundamental elementlərindən biri olmaqla yanaşı, milli təhlükəsizlik strategiyalarının əsas istiqamətlərindən biri kimi qəbul edilir [1, s.5]. Xüsusilə, müasir dövrdə enerji resurslarının tədarükü və bölgələrarası paylanması, dövlətlərin iqtisadi inkişafı və strateji məqsədləri üçün mühüm əhəmiyyət kəsb edir [4, s.12]. Enerji mənbələrinin davamlı təminatı və qiymət sabitliyi, ölkələrin iqtisadi fəaliyyətini və sosial rifahını qorumaq üçün vacib amillərdən biri hesab olunur. Bu səbəbdən, enerji təhlükəsizliyi yalnız tədarük mənbələrinin mövcudluğu ilə məhdudlaşmır, həm də onların siyasi və iqtisadi risklərdən qorunmasını tələb edir [7, s.23].

"Avropa İttifaqı (Aİ) uzun illər ərzində enerji təhlükəsizliyini təmin etmək məqsədilə müxtəlif mexanizmlər və əməkdaşlıq strategiyaları formalaşdırmışdır. Lakin bu strategiyalar əsasən Rusiyadan idxal olunan təbii qaz və neftə əsaslandığından, İttifaqın enerji siyasətində ciddi asılılıq yaranmışdır" [8, s.35]. 24 fevral 2022-ci ildə başlayan Ukrayna-Rusiya müharibəsi, bu asılılığın risklərini daha da artırmış və Aİ-nin enerji strategiyalarını yenidən nəzərdən keçirməsinə səbəb olmuşdur. Müharibənin başlanması ilə Rusiya qazının Aİ-yə tədarükü əhəmiyyətli dərəcədə azalmış, bu da enerji bazarında qeyri-müəyyənlik və qiymət artımına gətirib çıxarmışdır [6, s.41]. Bundan əlavə, tətbiq edilən sanksiyalar, enerji tədarükünün diversifikasiyasını sürətləndirmiş və Avropa ölkələrinin alternativ enerji mənbələri axtarışını zəruri etmişdir [7, s.67].

Bu kontekstdə Aİ-nin enerji siyasətində əsas prioritetlərdən biri, təbii qazın və neftin alternativ mənbələrdən təmin edilməsi və bərpa olunan enerji texnologiyalarına investisiyaların artırılması olmuşdur. Xüsusilə, Norveç, Əlcəzair və ABŞ-dan mayeləşdirilmiş təbii qaz (LNG) idxalının genişləndirilməsi, yeni enerji boru kəmərlərinin inkişafı və daxili enerji səmərəliliyi siyasətlərinin gücləndirilməsi əsas tədbirlər kimi qəbul edilmişdir [2, s.14]. Bununla yanaşı, Aİ ölkələri daxili enerji bazarının birləşdirilməsi və enerji şəbəkələrinin modernizasiyası üçün intensiv addımlar atmağa başlamışdır [5, s.32].

Məqalədə, Aİ-nin enerji təhlükəsizliyini təmin etmək məqsədilə qəbul etdiyi strategiyaları, bu sahədə mövcud olan riskləri və Ukrayna-Rusiya müharibəsinin enerji bazarına təsirlərini akademik kontekstdə araşdırır. Araşdırma çərçivəsində Aİ-nin enerji siyasətinin tarixi inkişafı, mövcud çağırışlar və gələcək perspektivlər təhlil ediləcəkdir. Məqalənin əsas məqsədi, Aİ-nin enerji siyasətində baş verən dəyişiklikləri dəyərləndirmək və enerji təhlükəsizliyi baxımından mümkün həll yollarını təqdim etməkdir.

**Metodologiya**

Bu tədqiqatda Avropa İttifaqının enerji təminatı təhlükəsizliyinə Ukrayna-Rusiya müharibəsinin təsiri analitik və sənəd təhlili metodları çərçivəsində araşdırılmışdır. Mövzu üzrə əsaslı nəticələr əldə etmək məqsədilə həm normativ yanaşmalar, həm də aktual siyasi-strateji proseslər birgə təhlil edilmişdir.

Tədqiqatda ilk olaraq analitik-təhlil metodu tətbiq edilmiş, enerji təhlükəsizliyi anlayışının tarixi inkişafı, Avropa İttifaqının enerji strategiyalarının təkamülü və müharibə ilə bağlı yaranmış təhdidlərin mahiyyəti elmi baxımdan şərh olunmuşdur. Müxtəlif dövrlərə (2006, 2009, 2022) və aktorlara (Rusiya, ABŞ, Norveç, Əlcəzair və s.) aid hadisələr arasında komparativ yanaşma qurulmuş, geosiyasi və iqtisadi fərqliliklər nəzərə alınaraq müqayisəli nəticələr çıxarılmışdır.

Bununla yanaşı, sənəd təhlili (document analysis) metodu vasitəsilə Avropa Komissiyasının rəsmi sənədləri, Avropa Yaşıl Razılaşması (Green Deal), Beynəlxalq Enerji Agentliyi (IEA), BP Statistical Review və digər açıq mənbələrdə təqdim olunan məlumatlar sistemli şəkildə təhlil olunmuşdur. Bu sənədlər vasitəsilə Avropa İttifaqının enerji siyasətində baş verən konseptual dəyişikliklər və regionun enerji xəritəsindəki transformasiyalar empirik əsaslarla müəyyənləşdirilmişdir.

Eyni zamanda, deskriptiv (təsviri) metod vasitəsilə enerji təchizatında müşahidə olunan dəyişikliklər, yeni infrastruktur layihələri (məsələn, LNG terminalları və interkonnektor xətləri) və enerji mənbələrinin şaxələndirilməsi istiqamətində atılan addımlar təsviri şəkildə təqdim edilmişdir. Beləliklə, tədqiqat, həm nəzəri konsepsiyalar, həm də praktiki dəyişiklikləri sintez edərək çoxsəviyyəli bir yanaşma ortaya qoymağı hədəfləmişdir.

**Enerji Təminatı Təhlükəsizliyinin Kon-**

**septual və Tarixi Konteksti**

Enerji təminatı təhlükəsizliyi, enerji resurslarının fasiləsiz, münasib qiymətlərlə və uzunmüddətli dayanıqlıqla təmin edilməsini nəzərdə tutur [3, s.89]. XX əsrin ikinci yarısından etibarən enerji resurslarının tədarükü beynəlxalq siyasətin əsas komponentlərindən birinə çevrilmişdir (6, s. 3). Bu anlayış təkcə enerji tədarükünün davamlı olması ilə məhdudlaşmır, həm də enerji mənbələrinin coğrafi şaxələndirilməsi, bazar sabitliyinin qorunması və enerji infrastrukturunun dayanıqlılığı kimi amillərlə sıx bağlıdır [7, s.45].

Enerji təhlükəsizliyi XX əsrin ortalarından etibarən qlobal siyasi və iqtisadi strategiyaların mərkəzində dayanmışdır. 1973-cü ildə baş verən neft böhranı bir çox ölkə üçün enerji təminatının milli təhlükəsizlik məsələsi kimi qəbul edilməsinə səbəb olmuşdur [9, s.51]. OPEC ölkələrinin neft tədarükünü məhdudlaşdırması, enerji idxalına yüksək dərəcədə bağlı olan Avropa və ABŞ iqtisadiyyatlarında ciddi böhran yaratmışdır. Bu hadisədən sonra, inkişaf etmiş ölkələr enerji mənbələrini diversifikasiya etmək və daxili enerji istehsalını artırmaq üçün yeni siyasətlər qəbul etməyə başlamışdır [4, s.67].

Aİ enerji təhlükəsizliyi siyasətinə nəzər yetirdikdə, İttifaqın əsas məqsədlərindən birinin enerji tədarükünün diversifikasiyası olduğu müşahidə edilir. Xüsusilə, XX əsrin sonlarından etibarən Aİ Rusiyadan enerji asılılığını azaltmaq üçün müxtəlif alternativ enerji strategiyalarını inkişaf etdirmişdir [7, s.34]. Bununla belə, son onilliklər ərzində geosiyasi gərginliklər və bazar qeyri-müəyyənlikləri Aİ-nin enerji strategiyasının davamlı olaraq yenilənməsinə ehtiyac yaratmışdır [8, s.92].

Enerji təhlükəsizliyi konsepti həmçinin ekoloji dayanıqlılıq və iqlim dəyişikliyi ilə də əlaqəlidir. Aİ-nin "Yaşıl Razılaşma" çərçivəsində həyata keçirdiyi siyasətlər, karbon emissiyalarını azaltmaq və bərpa olunan enerji mənbələrinə keçidi sürətləndirmək məqsədi daşıyır (5, s.78). Lakin bu keçid strategiyası, qısa və orta müddətdə yeni çağırışlar yaradır. Məsələn, bərpa olunan enerji mənbələrinin yetərli səviyyədə inkişaf etməməsi, qaz və neft kimi ənənəvi enerji mənbələrinin hələ də vacib rol oynamasına səbəb olur [7, s.56].

Enerji təhlükəsizliyi anlayışının inkişafında Aİ üçün mühüm mərhələlərdən biri də 2006 və 2009-cu illərdə baş verən Rusiya-Ukrayna qaz böhranları olmuşdur. Həmin illərdə Rusiya qazın nəqlini məhdudlaşdırmış, nəticədə bir çox Aİ ölkəsi enerji qıtlığı ilə üzləşmişdir (6, s.81). Bu böhranlar göstərmişdir ki, enerji təhlükəsizliyinin təmin olunması yalnız alternativ mənbələrin inkişafı ilə deyil, həmçinin infrastruktur modernizasiyası və hüquqi tənzimləmə çərçivələrinin gücləndirilməsi ilə də bağlıdır [2, s.102].

Gələcək perspektivlər baxımından, Aİ-nin enerji təhlükəsizliyi strategiyası əsasən üç istiqamətdə inkişaf edir:

**1. Tədarük mənbələrinin diversifikasiyası** – Rusiya qazına alternativ olaraq Norveç, ABŞ, Əlcəzair və Qətər kimi ölkələrlə enerji müqavilələrinin genişləndirilməsi [8, s.113].

**2. Bərpa olunan enerji mənbələrinin təşviqi** – Günəş və külək enerjisinə investisiyaların artırılması və texnoloji innovasiyaların dəstəklənməsi [4, s.92].

**3. Enerji səmərəliliyi və qənaət siyasətləri** – Sənaye və məişət sektorlarında enerji istehlakının optimallaşdırılması və yeni texnologiyaların tətbiqi [7, s.67].

Beləliklə, Aİ enerji təhlükəsizliyini təmin etmək üçün həm geosiyasi, həm iqtisadi, həm də ekoloji amilləri nəzərə alan çoxistiqamətli bir yanaşma formalaşdırmağa çalışır. Bu yanaşma, İttifaqın uzunmüddətli enerji siyasətinin əsasını təşkil edir və gələcək illərdə daha da inkişaf etdiriləcəkdir.

**Rusiyanın Aİ-yə Enerji Təchizatı: Dəyişikliklər və Risklər Kontekstində Təhlil**

Rusiya uzun illər ərzində Avropa İttifaqı (Aİ) üçün əsas enerji tədarükçüsü olmuşdur. 2021-ci ildə ittifaqın ümumi qaz idxalının təxminən 40%-i məhz Rusiyadan təmin olunmuşdur [7, s. 67]. Lakin 24 fevral 2022-ci ildə başlayan Ukrayna-Rusiya müharibəsi, Aİ-nin enerji təhlükəsizliyi baxımından kritik məqamlarla üzləşməsinə səbəb olmuşdur. Bu vəziyyət Aİ üçün yeni enerji siyasətlərinin tətbiqini və enerji şaxələndirmə səylərinin sürətləndirilməsini labüd etmişdir [8, s.89].

Müharibənin başlanması ilə Aİ, Rusiyaya qarşı iqtisadi sanksiyalar tətbiq etmiş və nəticədə Rusiya qazının tədarükü əhəmiyyətli dərəcədə azalmışdır. 2022-ci ilin sonlarına doğru Rusiya

Avropaya qaz nəqlini əvvəlki illə müqayisədə 55% azaltmış, bu da Avropada enerji böhranına səbəb olmuşdur [6, s.74]. Xüsusilə Şimal Axını 1 qaz kəmərinin fəaliyyətinin dayandırılması və Yamal-Avropa boru kəmərinin tutumunun azaldılması, Aİ-nin enerji təhlükəsizliyini daha da zəiflətmişdir [2, s.33].

Rusiya enerji bazarında dominant mövqeyə sahib olduğundan, bu azalma qlobal qaz qiymətlərinin kəskin yüksəlməsinə və Aİ daxilində inflyasiya səviyyəsinin artmasına səbəb olmuşdur. Eyni zamanda, Rusiyanın enerji siyasəti artıq yalnız iqtisadi deyil, eyni zamanda geosiyasi alət kimi də istifadə olunmuşdur [9, s.112].

Aİ üzv ölkələri, Rusiyadan olan enerji asılılığını azaltmaq üçün müxtəlif strategiyalar formalaşdırmışdır. Bu strategiyalar əsasən aşağıdakı istiqamətlər üzrə həyata keçirilmişdir:

**1. Yeni Tədarük Marşrutları və Tərəfdaşlar** – Norveç, Əlcəzair, ABŞ və Qətər kimi alternativ enerji tədarükçüləri ilə müqavilələr imzalanmışdır (7, s.102). Xüsusilə ABŞ-dan mayeləşdirilmiş təbii qaz (LNG) idxalı əvvəlki illərə nisbətən 2022-ci ildə iki dəfədən çox artmışdır (4, s.48).

2. LNG İnfrastrukturlarının Genişləndirilməsi – Aİ mayeləşdirilmiş təbii qaz idxalını artırmaq üçün Almaniya, İspaniya və Hollandiya kimi ölkələrdə yeni LNG terminallarının tikintisini sürətləndirmişdir (2, s.67).

3. Bərpa Olunan Enerji Mənbələrinə İnvestisiyalar – Günəş və külək enerjisi kimi alternativ enerji mənbələrinə qoyulan investisiyalar artırılmışdır (5, s.55).

4. Enerji Səmərəliliyi və Qənaət Strategiyaları – Aİ daxilində enerji istifadəsinin optimallaşdırılması və sənaye sahələrində enerji israfının azaldılması məqsədilə yeni qanunvericilik təşəbbüsləri irəli sürülmüşdür (8, s.91).

**Aİ-nin Enerji Təhlükəsizliyinə Təsir Edən Risklər**

Aİ-nin enerji təhlükəsizliyinə təsir edən əsas risklər aşağıdakı aspektlərdə cəmlənir:

• **Geosiyasi Risklər** – Ukrayna-Rusiya münaqişəsi səbəbindən Rusiya ilə enerji tədarükü əlaqələrinin qeyri-müəyyənliyə çevrilməsi Aİ üçün uzunmüddətli strateji problem yaratmışdır (8, s. 103).

• **İqtisadi Çətinliklər** – Alternativ enerji mənbələrinin inkişaf etdirilməsi böyük maliyyə yatırımları tələb edir. Qısa müddət ərzində bu keçidin tam həyata keçirilməsi çətinliklər yaradır (7, s.84).

• **İqlim Dəyişiklikləri və Ekoloji Faktorlar** – Aİ-nin bərpa olunan enerji mənbələrinə keçid strategiyası uzunmüddətli perspektivdə enerji təhlükəsizliyini artıracaq, lakin bu proses müəyyən ekoloji və iqtisadi çağırışlarla müşayiət olunur (5, s.77).

Rusiya-Aİ enerji münasibətlərində yaşanan dəyişikliklər Avropa İttifaqının enerji strategiyasına fundamental təsir göstərmişdir. Aİ Rusiyadan enerji asılılığını minimuma endirmək üçün müxtəlif alternativ enerji təchizatı mənbələri və diversifikasiya layihələri üzərində iş aparır. Bununla belə, bu keçidin tam həyata keçirilməsi üçün uzunmüddətli strategiyalara və böyük maliyyə yatırımlarına ehtiyac vardır.

Gələcək illərdə Aİ enerji siyasətində əsas diqqət bərpa olunan enerji mənbələrinin inkişaf etdirilməsinə, enerji səmərəliliyinin artırılmasına və yeni tədarük marşrutlarının qurulmasına yönələcəkdir. Bu istiqamətdə atılan addımlar Aİ-nin enerji təhlükəsizliyini daha dayanıqlı etmək və iqtisadi sabitliyi qorumaq baxımından mühüm rol oynayacaqdır.

**Müzakirə**

Ukrayna-Rusiya müharibəsi, Avropa İttifaqının (Aİ) enerji təminatı təhlükəsizliyi sahəsində mövcud strateji yanaşmalarını əsaslı şəkildə dəyişməyə məcbur etmişdir. Müharibə nəticəsində Rusiyaya qarşı tətbiq edilən sanksiyalar və enerji nəqlindəki kəsintilər, Aİ-nin uzun illər boyu davam edən enerji asılılığını strateji zəiflik kimi üzə çıxarmışdır. Bu şəraitdə, enerji təhlükəsizliyi anlayışı təkcə resursların mövcudluğu və qiymət sabitliyi ilə deyil, həm də geosiyasi risklərin və diplomatik gərginliklərin idarə olunması ilə sıx əlaqələndirilmişdir.

Tədqiqat göstərir ki, Aİ-nin enerji siyasətində əsas diqqət artıq mənbə şaxələndirməsinə, infrastrukturun dayanıqlılığına və bərpa olunan enerji texnologiyalarının inkişafına yönəlmişdir. Bu yanaşma, yalnız enerji bazarında deyil, həm də beynəlxalq münasibətlərdə Avropanın strateji mövqeyini yenidən qurmaq niyyətini əks etdirir. Norveç, ABŞ və Əlcəzair kimi alternativ tədarükçülərlə əməkdaşlığın genişləndirilməsi və LNG

(mayeləşdirilmiş təbii qaz) terminallarının tikintisi, qısa müddətli çevik reaksiyaların mühüm nümunəsidir.

Digər tərəfdən, müharibənin yaratdığı enerji təzyiqləri, Aİ daxilində sosial-iqtisadi təsirləri də özündə əks etdirmişdir. İstehlak qiymətlərində artım, sənaye fəaliyyətində yavaşlama və enerji ehtiyatlarının tənzimlənməsi kimi nəticələr, enerji siyasətinin təkcə texniki deyil, sosial və siyasi ölçülərinin də nəzərə alınmasını zəruri etmişdir. Bu baxımdan, Aİ-nin gələcək enerji təhlükəsizliyi strategiyalarının, həm daxili dayanıqlığı artırmağa, həm də xarici təsirlər qarşısında müqaviməti gücləndirməyə yönəlməsi gözlənilir.

Nəhayət, Aİ-nin enerji siyasəti ilə bağlı bu yeni yanaşma, geosiyasi transformasiyaların sadəcə enerji bazarlarına deyil, ümumilikdə beynəlxalq təhlükəsizlik arxitekturasına necə təsir etdiyini də ortaya qoyur. Ukrayna-Rusiya müharibəsi kontekstində formalaşan bu vəziyyət, enerji siyasətinin artıq diplomatik, iqtisadi və hərbi strategiyaların bir hissəsi olduğunu açıq şəkildə nümayiş etdirmişdir.

**Nəticə**

Avropa İttifaqının (Aİ) enerji təhlükəsizliyi siyasəti son onilliklər ərzində dinamik dəyişikliklərə məruz qalmış və xüsusilə Ukrayna-Rusiya müharibəsi kontekstində ciddi şəkildə yenidən formalaşdırılmışdır. Ənənəvi olaraq Rusiya qazına və neftinə yüksək asılılığı olan Aİ, bu müharibədən sonra enerji mənbələrinin diversifikasiyası, bərpa olunan enerji texnologiyalarına keçid və enerji infrastrukturunun modernizasiyası kimi yeni strategiyalar üzərində cəmləşmişdir. Müharibə nəticəsində ortaya çıxan enerji böhranı, ittifaq ölkələrini enerji təhlükəsizliyi baxımından daha dayanıqlı və uzunmüddətli həllər tapmağa məcbur etmişdir.

Aİ üçün əsas çağırışlardan biri, ənənəvi enerji mənbələrinin əvəzinə yeni tədarük marşrutları və alternativ enerji mənbələrinin inkişaf etdirilməsidir. Xüsusilə ABŞ, Norveç, Əlcəzair və Qətər kimi ölkələrdən mayeləşdirilmiş təbii qaz (LNG) idxalının artırılması, Aİ-nin enerji strategiyasının əsas istiqamətlərindən birinə çevrilmişdir. Bununla yanaşı, enerji infrastrukturunun yenilənməsi və yeni LNG terminallarının tikilməsi, Aİ ölkələrinin enerji müstəqilliyini artırmaq istiqamətində atdığı əsas addımlardan biridir.

Bununla belə, enerji siyasətindəki bu dəyişikliklər bir sıra iqtisadi və texnoloji çağırışları da özü ilə gətirmişdir. Bir tərəfdən, enerji resurslarının diversifikasiyası və yeni enerji tədarükü layihələrinin həyata keçirilməsi böyük maliyyə yatırımları tələb edir. Qısa müddət ərzində Rusiya qazına alternativ tapmaq çətin olduğu üçün Aİ ölkələri enerji qiymətlərində qeyri-sabitlik və inflyasiya kimi problemlərlə qarşılaşmışdır. Digər tərəfdən, bərpa olunan enerji mənbələrinə keçid siyasəti uzunmüddətli perspektivdə enerji təhlükəsizliyini gücləndirsə də, texnoloji infrastrukturun yetərsizliyi və müvafiq maliyyə dəstəyinin məhdud olması bu keçidin tam reallaşdırılmasını ləngidə bilər.

Müharibə fonunda qəbul edilən enerji siyasətləri göstərmişdir ki, Aİ-nin enerji təhlükəsizliyini təmin etmək üçün çoxistiqamətli və balanslı bir yanaşmaya ehtiyacı vardır. Bu çərçivədə üç əsas strategiya ön plana çıxır:

1. Enerji şaxələndirilməsi və yeni tədarük mənbələri – Aİ, Rusiyadan olan enerji asılılığını minimuma endirmək üçün alternativ enerji tədarükçüləri ilə uzunmüddətli müqavilələr bağlamalıdır. Xüsusilə Cənub Qaz Dəhlizi və Şərqi Aralıq dənizi qaz layihələri enerji təhlükəsizliyi baxımından mühüm rol oynaya bilər.

2. Bərpa olunan enerji mənbələrinin inkişaf etdirilməsi – Günəş, külək və hidrogen enerjisi kimi alternativ enerji mənbələrinə investisiyalar artırılmalı, həmçinin bu sahədə texnoloji innovasiyalar və araşdırmalar dəstəklənməlidir. Avropa Yaşıl Razılaşması çərçivəsində qəbul edilən tədbirlər, Aİ-nin enerji təhlükəsizliyini uzunmüddətli perspektivdə daha dayanıqlı edəcəkdir.

3. Enerji səmərəliliyi və qənaət tədbirləri – Aİ daxilində enerji istifadəsinin optimallaşdırılması, sənaye sahələrində enerjiyə qənaət mexanizmlərinin tətbiq edilməsi və enerji israfının qarşısının alınması uzunmüddətli perspektivdə enerji təhlükəsizliyini artıracaqdır.

Bütün bu tədbirlərin uğurla həyata keçirilməsi Aİ-nin enerji təhlükəsizliyini gücləndirəcək və geosiyasi risklərə qarşı daha dayanıqlı enerji bazarı formalaşdırmasına imkan yaradacaqdır. Ancaq bu prosesdə həm maliyyə, həm də texnoloji çağırışların mövcud olduğunu nəzərə almaq vacibdir.

Son olaraq qeyd etmək lazımdır ki, Aİ-nin enerji təhlükəsizliyi siyasəti yalnız iqtisadi və texnoloji tədbirlərlə məhdudlaşmır. Geosiyasi risklərin azaldılması və beynəlxalq əməkdaşlığın gücləndirilməsi də enerji təhlükəsizliyinin təmin olunmasında əsas rol oynayır. Gələcəkdə Aİ-nin enerji siyasətində daha çox regional və qlobal əməkdaşlıq strategiyalarına üstünlük verməsi, yeni enerji tədarük marşrutlarının yaradılması və yaşıl enerji texnologiyalarının inkişaf etdirilməsi gözlənilir. Bu istiqamətdə aparılacaq tədqiqatlar və həyata keçiriləcək layihələr, Aİ-nin enerji təhlükəsizliyi məsələsində daha da müstəqil və davamlı bir sistem qurmasına töhfə verəcəkdir.

**Ədəbiyyat**

1. Abbasov, H. − 2023. Avrupa Birliği'nin enerji arz güvenliğine Ukrayna-Rusya savaşı çerçevesinde yeni bir bakış [Yüksek lisans tezi, Ankara Üniversitesi].
2. BP Statistical Review. − 2022. Statistical review of world energy. BP.\
3. herp, A., & Jewell, J. − 2014. The concept of energy security: Beyond the four As. Energy Policy, 75, 415¬421. https://doi.org/10.1016/j.enpol.2014.09.005
4. European Commission. − 2022. European Green Deal and energy transition policies. European Union Publications.
5. European Green Deal. − 2022. The European Green Deal: Energy transition and climate change policies. European Union.
6. Eurostat. − 2022. EU energy consumption and production data. https://ec.europa.eu/eurostat/statistics
7. International Energy Agency (IEA). − 2022. Energy security in the European Union. IEA Publications.
8. Tagliapietra, S. − 2022. The EU's energy policy in times of crisis. Bruegel Policy Papers.
9. Yergin, D. − 2020. The new map: Energy, climate, and the clash of nations. Penguin Random House.

*Məqalə tarix üzrə elmlər doktoru, professor Hacıfəxrəddin Səfərli tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 23.01.2025, son daxilolma – 07.02.2025, qəbulolunma – 12.03.2025